# QƏLƏBƏ

İctimai-siyasi qəzet




TƏSİSÇİLƏR: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ REDAKSİYANIN JURNALİST KOLLEKTİVİ

15 dekabr 2020-ci il, № 35-36 (8.587) | Qəzet 21 fevral 1924-cü ildən çap olunur | qelebesalyan@gmail.com


# VƏTƏN MÜHARİBƏSİNİN ZƏFƏR TƏNTƏNƏSİ

## Azadlıq meydanında keçirilmiş Zəfər paradında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər

*Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.*

"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, "Zəfər" ordenli qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirdi.

Sonra Vətən müharibəsində müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək



dilər. Parad heyətinə polkovnik İsmixan Məmmədov başçılıq edirdi.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Dövlət Sərhəd Xidmətinin parad heyətləri general-mayor Rəsul Tağıyevin, Daxili İşlər Nazirliyinin general-mayor Bəkir Orucovun başçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi oldu.

Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak edirdilər. Parad heyəti general-mayor Məhəmməd həd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz yüksək döyüş hazırlığı nümayiş etdirdi.

"Dəmir yumruq" əməliyyatının - Vətən müharibəsinin qazilərinin Zəfər paradında tribuna önündən keçidi oldu.

Azadlıq meydanına 44 günlük nan "Qarabağ Azərbaycandır!" şüarı ilə bir daha bəyan edilib.

Döyüşlərdə qənimət götürülmüş istifadəyə yararlı texnikalar - "KamAZ" markalı avtomobilin qoşqusunda D-30, "Ural" markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri, piyadaların döyüş maşınları (PDM), "T-72" tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli "UAZ Patriot", "UAZ Hunter" minik, "ZİL-131", "Ural", "KamAZ" markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2 texnikaları, T-72 tankları qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqidir.

Bundan sonra xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Qarabağ" ordenli general-leytenant Nizam Osmanov başçılıq edirdi.

Azadlıq meydanında keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tank əleyhinə idarə olunan "SPIKE-ER", "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", eləcə də 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tank əleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən top-haubitsaları, "Qrad", "RM-70/85", "BM-21", "Smerç" yaylım atəşli reaktiv sistemləri, "TR-300 Qasırğa", "Ekstra" taktiki, "Polonez" və "LORA" əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. "Qarabağ" ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi "Mİ-17" hərbi nəqliyyat-desant helikopterləri cütlüyü Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamladı. Bunun ardınca Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Rəşad Nadirovun başçılığı ilə "Mİ-35" hücum helikopterləri qrupunun uçuşu oldu. Polkovnik-leytenant Rəhim Quluzadənin başçılığı ilə "LAHAT" və "SPAYK" uzunmənzilli raketləri








general-leytenant Kərim Vəliyev komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verdi.

Dövlət başçıları əsgərləri salamladılar.

Hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etdi.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başladı. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə xalqımıza Böyük Qələbənin sevincini yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edir.

Ardınca Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları birinci dərəcəli kapitan Zaur Quliyevin başçılığı ilə tribuna önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri tribunanın önündən addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə general-mayor Rövşən Muxtarov başçılıq edirdi.

Daha sonra polkovnik Səid İsayevin başçılığı ilə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, polkovnik Taleh Məşədiyevin rəhbərliyi ilə Birinci Ordu Korpusunun döyüşçüləri, polkovnik Nemət Müseyibovun başçılığı ilə İkinci Ordu Korpusunun, polkovnik-leytenant Kamran Ağabalayevin rəhbərliyi ilə Üçüncü Ordu Korpusunun, polkovnik İlham Məmmədovun başçılığı ilə Dördüncü Ordu Korpusunun və polkovnik-leytenant Dəyanət Müslümovun rəhbərliyi ilə Altıncı Ordu Korpusunun hərbi qulluqçuları tribuna önündən keçdilər.

Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları da tribuna önündən mətin addımlarla irəlilə-




nin Daxili Qoşunlarının parad heyəti general-mayor İnqilab Muradovun, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti isə mayor Eldar Quliyevin rəhbərliyi ilə mətin addımlarla Azadlıq meydanına daxil oldular.

Sonra general-mayor Füzuli Salahovun rəhbərliyi ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti, general-mayor Həsənovun başçılığı ilə tribuna önündən keçdilər.

Vətən müharibəsində Böyük Qələbəyə həsr olunmuş Zəfər paradını Əməkdar incəsənət xadimi polkovnik-leytenant Rüfət Axundzadənin dirijorluğu ilə birləşmiş hərbi orkestr müşayiət edirdi.

Daha sonra hərbi texnikaların keçidi başladı.

Vətən müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sər- Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Dağlıq Qarabağ ərazisinin əzəli Azərbaycan torpağı olduğu kompozisiyanın üzərinə həkk olu-

"NLOS", "LAHAT" raketləri, 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət maşınları, piyada daşıyan zirehli maşınlar, "Kobra" və "BTR-82A" zirehli transportyorları, PDM-2 və PDM-3 texnikaları, "T-72", "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Daha sonra Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirov başçılıq edirdi. Tribuna önündən modernləşdirilmiş "OSA-1T", "S-125 TM", "BUK-MB", "İldırım" zenit-raket komplekslərinin, "S-300 Favorit" sistemlərinin keçidi oldu. Ardınca Vətən müharibəsində Qələbənin əldə edilməsində çox mühüm rol oynayan "Orbiter-1KM" - "İti qovan", "Orbiter-2B", "Orbiter-3B", "Orbiter-4", "Aerostar-BP", "Heron" pilotsuz uçuş aparatları (PUA), eləcə də ən müasir PUA-lar - "Bayraktar-TB2", habelə "Hermes-450", "Hermes-900", "Quzğun" və "Harop" PUA-ları nümayiş olundu.

Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-mayor Ağamir Sultanov başçılıq edirdi. Meydanda özüyeriyən haubitsa və artilleriya qurğuları - 152 millimetrlik ilə silahlanmış "Mİ-17" helikopterlərinin və "Qarabağ" ordenli polkovnik Zaur Rüstəmovun rəhbərliyi ilə "MİQ-29" çoxməqsədli qırıcı təyyarələr qruplarının uçuşları da maraqla qarşılandı. Zəfər paradında döyüş təyyarə və helikopterlərinin çıxışını müasir silahlarla təchiz olunmuş "Su-25" hücum və hava dəstək təyyarələr qrupu tamamladı. Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin başçılıq etdiyi qrupun səmada Azərbaycan Respublikasının dövlət bayrağının təsvirini yaratması üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun Böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. "Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqidir.

Yaşasın, müstəqil Azərbaycan Respublikası! Yaşasın, müzəffər Azərbaycan Ordusu! Yaşasın, sarsılmaz və əbədi Azərbaycan-Türkiyə qardaşlığı!

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhidlərimizin xatirəsini yad etmişlər



Dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanında olub və şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil, birinci xanım Mehriban Əliyeva gül dəstəsi qoymuşlar.

Azərbaycanın dövlət himni səsləndirilmişdir.

Qeyd edək ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən müharibəsinin qəhrəman şəhidlərinin əziz xatirəsi ölkəmizin hər yerində, məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiram hissi ilə yad edilmişdir.

Allah şəhidlərimizə rəhmət eləsin!

## Birinci vitse-prezident Mehriban Əliyeva: Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Vətən müharibəsində həlak olmuş şəhidlərlə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:



"Əziz qardaşlar və bacılar!

Bu gün biz Vətən müharibəsi döyüşlərində həlak olmuş şəhidlərin xatirəsini yad edirik.

Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib.

Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir.

Bu g2n mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu!

Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq! Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq.

Allah şəhidlərimizə rəhmət eləsin, yaralılara tezliklə şəfa, onların ailələrinə və yaxınlarına güc və səbir versin! Uca Tanrı Azərbaycanı və Azərbaycan xalqını qorusun!".

## Mehriban Əliyeva: "Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır"

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsindəki paylaşımında bildirilir. Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Bu günlər biz hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qürurunu və sevincini yaşayırıq. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edilmişdir.

Əlbəttə, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik. Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır.

Amma əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb, yaradacaqlar.

Əziz həmvətənlər,

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!

*Dərin hörmət və sevgilərlə,*
*Sizin MEHRİBAN".*




## Prezident İlham Əliyev: Şəhidlərimizi ehtiramla yad edirik!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızla bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının "Facebook" səhifəsindəki paylaşımında "Şəhidlərimizi ehtiramla yad edirik!" deyə qeyd olunub.

## Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub



Canlarını Azərbaycanın ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükutla yad olunub.

AZƏRTAC xəbər verir ki, insanlar şəhidlərimizin ruhu qarşısında baş əyib, onların xatirəsinə hörmət və ehtiramlarını bir dəqiqəlik sükutla ifadə ediblər. Dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən, gəmilərdən səs siqnalları verilib.

Anım gününün ikonası Şuşanın rəmzi sayılan "Xarı Bülbül"dür.

Qeyd edək ki, sükut dəqiqəsi Prezident İlham Əliyevin Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında Sərəncamı ilə elan olunub.

Azərbaycanın bütün şəhər və rayonlarındakı məscidlərdə, kilsə və sinaqoqlarda Vətən müharibəsi şəhidlərinin anma mərasimləri keçirilib.

Salyan rayonunda da Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi ehtiramla yad edilmişdir.Beləki rayonun hacı Tağı məscidində şəhidlərimizin ruhuna düalar səslənmiş və Vəqv namazı oxunmuşdur.

Saat 12:00 da şəhər nəqliyyatı da daayanmış və Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik süktla yad edilmişdir.

Xatırladaq ki, Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 hərbi qulluqçusu həlak olub. Hərbi əməliyyatlar zamanı yaralanmış 1245 əsgər və zabitin tibb müəssisələrində müalicəsi davam etdirilir.

Allah şəhidlərimizə rəhmət eləsin, bütün yaralılara şəfa versin.

## Vətən Sizinlə fəxr edir

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" və "Vətən Müharibəsi Qəhrəmanı" Fəxri adlarının verilməsi orden və medallarla təltif edilməsi barədə sərəncamlar imzalamışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib:

Həşimov Polad İsrayıl oğlu - general-mayor (ölümündən sonra)
Mirzəyev İlqar Anzor oğlu - polkovnik (ölümündən sonra)
Hüseynov İbad Mövsüm oğlu - ehtiyatda olan baş çavuş.

### Azərbaycan Prezidenti İlham Əliyevin Silahlı Qüvvələrin hərbi qulluqçularının təltif edilməsi haqqında imzaladığı sərəncam ilə

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Bu sırada həmyerlilərimiz vardır.

1. Cəbrayılov Sübhan Rahim oğlu -baş gizir-(ölümündən sonra)
2. Zeynalov Zaur İlham oğlu-polkovnik
3. Cahangirov Ələkbər Məhəmməd oğlu-polkovnik










### Azərbaycan Prezidenti İlham Əliyev Silahlı Qüvvələrin hərbi qulluqçularının "Zəfər" və "Qarabağ" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları Azərbaycan Prezidenti İlham Əliyevin Silahlı Qüvvələrin hərbi qulluqçularının təltif edilməsi haqqında imzaladığı sərəncamı ilə "Zəfər" və "Qarabağ" ordeni ilə təltif ediliblər. Onların sırasında həmyerlilərimiz də vardır:

1. Balıev Hüseynağa Salman oğlu-mayor (ölümündən sonra)
2. Şirinov Kamil Əliş oğlu-kapitan (ölümündən sonra)
3. Ələkbərov Əlisahib Selman oğlu-baş leytenant (ölümündən sonra)
4. Əsədov Emil Balaqardaş oğlu- leytenant (ölümündən sonra)













## Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi uğrunda aparılan döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi, misilsiz şücaət və rəşadət göstərmişlər. Xalqımızın bir sıra igid övladları işğalçı düşmənə qarşı həyata keçirilən əməliyyatlar zamanı şəhid olmuş, sağlamlığını itirmişlər.

Azərbaycan Respublikasında hərbi qulluqçuların və şəhid ailələrinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin əsas tərkib hissəsi olmuşdur. Bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılmış, onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar.

Bununla yanaşı, şəhid ailələrinin və Vətənin müdafiəsində iştirak edən şəxslərin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması daim vətəndaş cəmiyyətinin də diqqət mərkəzindədir. Azərbaycan xalqı xeyirxahlıq, fədakarlıq və humanizm prinsiplərini rəhbər tutaraq, təmənnasız kömək ənənələrini davam etdirir, vətəndaşlarımız, xarici ölkələrdə yaşayan soydaşlarımız, sahibkarlar, humanitar və digər təşkilatlar şəhid ailələrinin və hərbi əməliyyat iştirakçılarının zəruri ehtiyaclarının təmin edilməsinə, maddi, tibbi və digər sosial xərclərinin ödənilməsinə yardım sahəsində həmrəylik nümayiş etdirirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondu (bundan sonra - Fond) yaradılsın.

2. Fondun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Fond aşağıdakı şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi (maliyyə yardımlarının göstərilməsi və digər dəstək tədbirlərinin həyata keçirilməsi) üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə yaradılır:

3.1.1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailələrinin üzvlərinə;

3.1.2. işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət orqanlarının (qurumlarının) əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə;

3.2. Fondun vəsaiti Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır;

3.3. Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir (bundan sonra - Dövlət Agentliyi);

3.4. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir.

4. Himayəçilik Şurası:

4.1. Fondun vəsaitinin formalaşdırılmasına və xərclənməsinə nəzarəti həyata keçirir;

4.2. Fondun vəsaitinin formalaşdırılması və xərclənməsi istiqamətlərinə dair müzakirələr aparır, habelə daxil olan vəsaitin məbləği nəzərə alınmaqla, onun xərc istiqamətlərini müəyyən edir;

4.3. Fondun vəsaitinin idarə edilməsi ilə bağlı kənar auditor yoxlamalarının keçirilməsinə dair tədbirlər görür;

4.4. Fondun vəsaitinin idarə edilməsi ilə bağlı digər məsələləri həll edir.

5. Fondun vəsaitlərinin idarə edilməsinin təmini üçün Dövlət Agentliyinin işçilərinin say həddi 20 ştat vahidi artırılsın.

6. Dövlət Agentliyi:

6.1. bu Fərmanın 3.1-ci bəndində nəzərdə tutulmuş şəxslərin müraciətlərinin qəbulunu və onlara baxılmanı təmin etsin;

6.2. fiziki və hüquqi şəxslərin Fonduna könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımların (ianələrin) bank və ya poçt vasitəsilə, eləcə də elektron qaydada qəbulunu təşkil etsin;

6.3. Fondun vəsaitlərinin idarə edilməsini və əlavə dəstək tədbirlərinin həyata keçirilməsini təmin edən informasiya sistemini formalaşdırsın;

6.4. Fondun vəsaitlərinin idarə olunması ilə bağlı elektron hesabatlılığı, habelə daxil olan və xərclənən vəsaitin məbləği və istiqamətləri ilə bağlı məlumatların Fondun rəsmi internet səhifəsində yerləşdirilməsini və daim yenilənməsini təmin etsin;

6.5. Fond vasitəsilə həyata keçirilən tədbirlərə könüllüləri cəlb etsin;

6.6. Fondun vəsaitindən istifadəyə dair Himayəçilik Şurasına təkliflər versin;

6.7. Fondun vəsaitinin idarə edilməsinə dair yarımillik və illik hesabatları, habelə digər zəruri məlumatları Himayəçilik Şurasına təqdim etsin.

7. Dövlət Agentliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Fərmanın 3.1-ci bəndində nəzərdə tutulmuş şəxslərə Fond vasitəsilə göstərilən dəstək tədbirlərinin həmin şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərlə uzlaşdırılmasını, habelə bu sahədə informasiya mübadiləsini təmin etmək üçün müvafiq informasiya sistemlərinin inteqrasiyasını təşkil etsinlər.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 8 dekabr 2020-ci il.

## *Prezidentə yazırlar*

# “Sizin düzgün siyasətiniz nəticəsində ordumuz Qələbə qazandı”

Hörmətli cənab Prezidentimiz və
Ali Baş Komandanımız!

Torpaqlarımızın işğaldan azad olunması münasibətilə Sizi, ailənizi, Ordumuzu və xalqımızı təbrik edirəm. Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin göstərdiyiniz şücaət, düzgün siyasətiniz sayəsində Ordumuz Qələbə qazandı və 30 illik həsrətə son qoyuldu. Allah Sizə möhkəm cansağlığı versin. Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyirəm.

*Hörmətlə,*
*Abbasova Zərnişan Rahib qızı.*
*Azərbaycan Respublikası, Salyan şəhəri.*

---

Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan.

Sizin xalq, dövlət və ordunu dəmir yumruq kimi ətrafınızda birləşdirərək işğal altında olan torpaqlarmızı qısa müddət ərzində azad etməyiniz hamı kimi, məndə də qürur hissi oyatdı.

Cənab Prezident, mən fizika müəllimiyəm. Əslən Qərbi Azərbaycanın Göyçə mahalındanam. Allah Sizə ömür versin. İnanıram ki, Azərbaycanın XXI əsr qalib Sərkərdəsi bizim də doğma ocaqlarımıza qaytarılmağımıza nail olacaq.

Sizə cansağlığı, daim qalib olmağı arzulayıram.

*Hörmətlə,*
*Almas Dadaşova*
*Azərbaycan Respublikası, Salyan rayonu,*
*Aşağı Kürkənd kəndi.*

---

Hörmətli cənab Prezident,

Bütün xalqımız kimi, biz ağsaqqallar da Sizinləürəyi daim doğma Azərbaycanımızla döyünən müdrik rəhbər, qüdrətli Sərkərdəylə haqlı olaraq fəxr edirik. Otuz illik torpaq, yurd həsrəti 44 gündə sona çatdı. Sizin uzun illər ərzində apardığınız ardıcıl, məqsədyönlü siyasət və rəşadətli Ordumuzun gücü, qüdrəti sayəsində mənfur düşmən üzərində Böyük Qələbəyə nail olduq. Bizə daim mənəvi dəstək göstərən türk qardaşlarımıza dərin minnətdarlığımızı bildiririk. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı bütün zamanlarda olduğu kimi, Vətən müharibəsi dövründə də öz dəyərini qoruyub saxlamışdır. Tanrı Türkiyə-Azərbaycan birliyini qorusun!

Müzəffər Ali Baş Komandan, biz ağsaqqallar Sizi dünyanın liderlərindən biri, Cənubi Qafqazın şəriksiz lideri hesab edirik. Siz öz adınızı xalqımızın şanlı qəhrəmanlıq tarixinə qızıl xətlərlə yazmısınız. Böyük Yaradan Sizi-xalqımızın böyük, ləyaqətli oğlunu qorusun!

Döyüş meydanında igidlik, şücaət göstərərək şəhidlik zirvəsinə yüksələn qəhrəman Azərbaycan oğullarının ataları, anaları qarşısında baş əyirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Yaşasın Azərbaycan xalqı! Yaşasın Müzəffər Alı Baş Komandan! Yaşasın rəşadətli Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

*Zübeyir Quliyev*
*Salyan rayonu, Kərimbəyli kənd ağsaqqallar şurasının sədri, Əməkdar neftçi.*

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 17 il keçir.

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

x x x

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Ulu öndər Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq.

Ümummilli Liderin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç bir hakimiyyət sahibi etməyib. Meydana silahsız gələn bu dahi insan qüdrətli ordu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri, özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident



yetişdirdi.

Ulu Öndərimizin əbədiyyətə qovuşmasının 17-ci ildönümü bu dahi şəxsiyyətin ən böyük arzusunun - işğal altındakı torpaqlarımızın azad olunması ilə nəticələnən şanlı Qələbəmizin sevincini qeyd etdiyimiz bu tarixi günlərə təsadüf edir. Əbədiyaşar Liderin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi, bütün ömrü boyu sədaqətlə xidmət etdiyi doğma Azərbaycanımızın ərazi bütövlüyünün bərpası idi. Ümummilli Lider illər öncə böyük uzaqgörənliklə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Həmin vaxt 17 ildən sonra yetişdi. Dahi şəxsiyyətin bu arzusunu, vəsiyyətini onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Ümummilli Liderin qurucusu olduğu rəşadətli Azərbaycan Ordusu yerinə yetirdi. İldən-ilə güc toplayan Azərbaycan, onun rəşadətli Ordusu düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı. Dəmir yumruqla beli qırılan, başı əzilən düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu, ərazi bütövlüyümüz təmin edildi. Öz liderinə, Ali Baş Komandanına inanan və güvənən bu ordu, igid Azərbaycan əsgəri 30 illik işğala qanı-canı bahasına son qoydu.

Vətən müharibəsində qazanılan Böyük Qələbə münasibətilə Bakıda keçirilən möhtəşəm Zəfər paradı ümummilli lider Heydər Əliyevin əbədiyaşar ideyalarının onun layiqli siyasi varisi, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin təntənəsi oldu.

x x x

Dekabr ayının 12-də Salyan rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, RİH başçısı yanında şura üzvləri, hüquq-mühafizə orqanlarının, idarə-müəssisələrin rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri şəhər mərkəzindəki Heydər Əliyev parkına gələrək burada ucaldılan Ümummilli liderin abidəsini ziyarət etmiş, önünə tər gül-çiçək dəstələri düzmüşlər. Ulu Öndərin Azərbaycanın müstəqilliyi uğrundakı fəaliyyəti xatırlanmış, ruhuna dualar oxunmuşdur.

# Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş videokonfrans

Ümummilli Liderimiz Heydər Əliyevin 12 dekabr-anım günü münasibətilə videokonfrans keçirilmişdir. YAP Salyan rayon təşkilatının təşəbbüsü ilə keçirilən videokonfransda partiya üzvləri, ictimai fəallar və gənclər iştirak etmişlər.

Video-tədbiri YAP Salyan rayon təşkilatının sədri Rəşad Cəbrayılov açaraq bildirmişdir ki, əlamətdar bir vaxtda, ölkədə zəfər paradının qeyd edildiyi gündə Ümummilli liderin anılması çox təqdirəlayiqdir. Çünki Ulu Öndər Azərbaycan üçün belə zəfər gününün olacağına inanırdı və bütün mənalı həyatını ölkəmizin ərazi bütövlüyünün qorunmasına, müstəqilliyinin təmin edilməsinə həsr etmişdi. Dahi rəhbərin siyasi kursunu ləyaqətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev bütün ata vəsiyyətinə layiqincə əməl etmiş, xalqımıza qələbə sevincini yaşatmışdır.

Videokonfransda Şəkərli kənd məktəbinin direktoru Səlimağa Səlimli, rayon peşə liseyinin direktoru Razıgül Dadaşova, Heydər Əliyev Mərkəzinin direktoru Nübar Əliyeva, "Qələbə" qəzetinin baş redaktoru Rüstəm Məlikov, YAP rayon təşkilatının veteranı çıxış etmişlər. Qeyd edilmişdir ki, Ümummilli Lider Azərbaycan xalqının tarixə bəxş etdiyi ən böyük simalardan biridir. O, dahi və uzaqgörən siyasətçi, xalqı vahid ideologiya ətrafında birləşdirən lider, Azərbaycanın müstəqilliyinin əbədiyyətə qovuşması yolunda tirixi xidmətləri olan bir şəxsiyyət olmuşdur. Ulu Öndər bütün mənalı həyatını Azərbaycanın müstəqilliyinin qorunmasına, onun ərazi bütövlüyünün təmin edilməsinə, xalqın səadətinə və firavan yaşamasına həsr etmişdir.

Məhz onun Azərbaycana rəhbərlik etdiyi illərdə ordu quruculuğuna başlanılması və bu sahədə işlərin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Silahlı Qüvvələrimiz sentyabrın 27-dən başlayan Vətən müharibəsini 44 gündə qələbə ilə başa vurmuş, Azərbaycanın tarixi əraziləri BMT-nin qəbul etdiyi qətnamələr çərçivəsində təmin edilmişdir.

Konfrans iştirakçıları vurğulamışlar ki, qazanılan qələbələr şəhidlərimizin qanı və canı bahasına əldə edilmişdir. Onların, qazilərimizin igidlik dastanı hərb tarximizin parlaq səhifəsidir. Ali baş Komandanımız İlham Əliyevin sərkərdə qətiyyəti ilə istər döyüş meydanında, istərsə də danışıqlar masasında böyük qələbəmiz tam təmin edildi. Qarabağımızın qara günləri indi arxada qalmış, bu bölgəyə yeni həyat gəlmişdir.

Videokonfransın sonunda çıxış edən YAP Salyan rayon təşkilatının sədri R.Cəbrayılov onu da bildirmişdir ki, xalqımız iki cəbhədə döyüşürdü. Qarabağda qazanılan zəfərlə bir tarix yazıldı. Bütün dünyanı bürüyən COVİD-19 pandemiyası ilə mübarizəmiz isə davam edir. Bu virus çox səssizcə hər gün neçə-neçə canlar alır. Nazirlər Kabineti yanında Operativ Qərargahın bu sahədəki son qərarları bir daha hamımızı vətəndaşlıq məsuliyyətini dərk etməyə çağırır. Biz həmişə birlikdə güclü olmuşuq.

# Salyan rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə fərdi evlər verildi

***Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun əldə etdiyi möhtəşəm tarixi Zəfərin qürur və fərəhini yaşadığımız bu günlərdə şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlərlə təminatı tədbirləri də davam edir.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən daha 6 şəhər və rayonda - Salyan, Goranboy, Sabirabad, Hacıqabul, Şirvan və Göyçayda 20 fərdi yaşayış evi həmin kateqoriyadan olan vətəndaşlara verilib.

Salyanda evlərin təqdim edilməsi tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov iştirak etmişlər.

Şəhid ailələri və Qarabağ müharibəsi əlilləri ərazilərimizi erməni faşizminin əsarətindən azad edən Ali Baş Komandanımızla, rəşadətli Silahlı Qüvvələrimizlə sonsuz iftixar hissi keçirdiklərini vurğulayıblar.

Bildiriblər ki, 44 günlük Vətən müharibəsinin hər günündə xalqımız cəbhədən yalnız qələbə müjdələri aldı. Ordumuz daim irəliləyərək, düşməni doğma torpaqlarımızdan qovdu. 30 ilə yaxın işğal altında qalan ərazilərimizdə indi Azərbaycan bayrağı dalğalanır. Bundan fərəhli heç nə ola bilməz. Torpaqlarımızın təcavüzkar Ermənistanın işğalından azad edilməsi şəhidlərimizin də ruhunu sevindirir.

Həmişə dövlət tərəfindən onların təminatı sahəsində aparılan işlərdən razılıq edən şəhid ailələri və Qarabağ müharibəsi əlilləri göstərilən yüksək qayğıya, bu gün isə yeni evlərlə təmin olunduqlarına görə, Prezident, Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Dövlət başçısının tapşırığına əsasən şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə təminatı işləri ildən-ilə genişlənir. 2020-ci ildə onlara rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub və artıq 1000-i verilib.

Ümumilikdə, ötən dövrdə şəhid ailələrinə və müharibə əlillərinə 9000-ə yaxın mənzil və fərdi ev təqdim olunub. Bu proqram hazırda uğurla davam etdirilir.

# Zəfər tariximiz: Kənd, qəsəbə və şəhərlərimizin işğaldan azad olunma tarixi

Dekabrın 1-də ərazisi 1800 kvadratkilometr olan Laçın rayonunun erməni işğalçılarından azad olunması ilə noyabrın 10-da imzalanmış birgə Bəyanatın daha bir müddəası icra olundu.

Beləliklə, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa müharibə yolu ilə, Ağdam, Kəlbəcər, Laçın isə diplomatiya yolu ilə işğaldan azad olundu.

Şanlı Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilmişdi.

Bura Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şüküratаz yüksəklikləri və daha 5 adsız yüksəklik daxil idi.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bəyanata əsasən, 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları da Azərbaycana qaytarılmalıydı.

Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verildi. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olundu.

Noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi. Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edildi.

Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşıb.

<u>27 sentyabr</u>

Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri

Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri

Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

<u>3 oktyabr</u>

Tərtər rayonunun Suqovuşan və Talış kəndləri

Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

<u>4 oktyabr</u>

Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

<u>5 oktyabr</u>

Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

<u>9 oktyabr</u>

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri

Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri

Tərtər rayonunun Çaylı kəndi

<u>14 oktyabr</u>

Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri

Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

<u>15 oktyabr</u>

Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri

Füzuli rayonunun Arış kəndi

Cəbrayıl rayonunun Doşulu kəndi

<u>16 oktyabr</u>

Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

<u>17 oktyabr</u>

Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

<u>18 oktyabr</u>

Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

19 oktyabr

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

<u>20 oktyabr</u>

Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri

Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri

Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

<u>21 oktyabr</u>

Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri

Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri

Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

<u>22 oktyabr</u>

Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi

Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri

Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

<u>23 oktyabrf</u>

Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri

Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri

Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri

Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

<u>25-26 oktyabr</u>

Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri

Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri

Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

<u>28 oktyabr</u>

Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri

Füzuli rayonunun Mandılı kəndi

Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri

Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

<u>30 oktyabr</u>

Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri

Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri

Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

<u>2 noyabr</u>

Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri

Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri

Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

<u>4 noyabr</u>

Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri

Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri

Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

<u>7 noyabr</u>

Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri

Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri

Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri

Zəngilan rayonunun Beşdəli kəndi

Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri

Xocalının Qarabulaq, Moşxmaat kəndləri

<u>8 noyabr</u>

ŞUŞA şəhəri

<u>9 noyabr</u>

Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzlək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri

Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri

Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri

Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri

Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri

Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi

Laçın rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri

<u>10 noyabr</u>

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

Bəyanata əsasən, 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonu, noyabrın 20-dək Ağdam rayonu, dekabrın 1-dək isə Laçın rayonu Azərbaycana qaytarılmalıdır.

<u>20 noyabr</u>

Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi azad olunub. Rayonda ümumilikdə 138 yaşayış məntəqəsi var.

<u>25 noyabr</u>

Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu da Azərbaycana təhvil verilib. Kəlbəcər ərazi baxımından respublikamızın ən böyük rayonlarından biridir. İşğaldan əvvəl rayonda 147 yaşayış məntəqəsi olub.

<u>1 dekabr</u>

Üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı birləşmələri Laçın rayonundan çıxıblar. Rayon Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib. Qeyd edək ki, ərazisi 1800 kvadratkilometr olan Laçın rayonunda 1 şəhər, 1 qəsəbə və 125 kənd olmaqla, ümumlikdə 127 yaşayış məntəqəsi var.

## Şəhidlər ölməz, Vətən bölünməz!

# Öləriksə, şəhid, qalarıqsa, qazi olarıq

Ali Baş Komandanımızın yüksək sərkərdəlik məharəti, ordumuzun əsgər və zabitlərinin qəhrəmanlığı sayəsində torpaqlarımız mənfur düşməndən azad edildi, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Hərb tarixində analoqu olmayan döyüş taktikası və strategiyasının nəticəsi olaraq rəşadətli Ordumuz parlaq qələbə qazandı. Şəhidlərimizin axıtdıqları qanlar hesabına müqəddəs bayraqlarımız azad edilmiş torpaqlarımızda vüqarla dalğalanmaqdadır.

İşğalçılardan təmizlənmiş ərazilərimizdə bayraq ucaltmaq hər bir Azərbaycan əsgərinin ən böyük arzusu idi. Bu ülvi arzularla haqq savaşına atılan həmyerlimiz Əfqan Hüseyn oğlu Axundov 2020-ci il fevralın 16-da Salyan rayonunun plastmass yaşayış massivində dünyaya göz açmışdı. 2015-ci ildə Salyan şəhər 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseyin IX sinfini bitirən Əfqan Bakı Dənizçilik Kollecinə daxil olmuşdu. 2019-cu ildə təhsilini başa vuran gənc elə həmin il ordu sıralarına çağırılmışdı. Goranboyda üç ay təlim keçərək silah-sursatın, hərbi texnikanın sirlərinə dərindən yiyələnmişdi. Bundan sonra hərbi xidmətini Tərtərdə davam etdirmişdi. 2020-ci l sentyabrın 27-də Vətən müharibəsi başlananda torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərə atılan yurdumuzun igid oğulları sırasında Əfqan da var idi. 2020-ci il oktyabrın 29-da Madaqiz (indiki Suqovuşan) kəndinin alınmasında xüsusi igidlik və şücaət nümayiş etdirən vətənpərvər həmyerlimiz bu qanlı savaşda şəhid olaraq Tanrı dərgahına ucalmışdır.

Ailənin ağsaqqalı Feyzulla kişi söhbət zamanı kövrəlsə də, özünü ələ alaraq nəvəsi barədə fəxrlə danışmağa başladı: "Düzdür, bu, böyük itkidir, ancaq məni qürrələndirən odur ki, indi mənim nəvəm təkcə bizim nəslimizə deyil, bütün Azərbaycana aiddir. Sevinirəm ki, bu gün o, hər bir azərbaycanlı üçün doğmadır, əzizdir. Məmnunam ki, qələbəmizin qazanılmasında mənim də nəvəmin payı var".

Oğul itkisi Xoşgül xanımın üzündə-gözündə aydın görünsə də, eyni zamanda, onun simasındakı qürur hissini də sezməmək mümkün deyildi. Lakin bir ad-şəhid anası adı ölçüyəgəlməz dərdini yüngülləşdirən, sızlayan yarasına məlhəm idi. Xoşgül xanım həm doluxsuna-doluxsuna, həm də qürrələnə-qürrələnə söhbətə qoşuldu: "Əfqan hələ tələbə ikən deyirdi ki, ana, bir böyüyüm, mütləq gedib Qarabağı alacağam, hamınız mənimlə fəxr edəcəksiniz. Döyüş cəbhəsində olanda hər dəfə telefonla danışanda bildirirdi ki, mən də, əsgər yoldaşlarım da şəhid, qazi olmaqdan qorxmuruq. Təki Vətənimiz azad olsun. Əgər şəhid olsam, qəm yemə, ana. Bu, nəslimizə, millətimizə başucalığı gətirən gözəl ölüm olacaq".



Şəhidimizin bacısı Turanənin dedikləri istər-istəməz məni də kövrəltdi: "Bacı, Qələbə çalıb qayıdandan sonra sənin üçün elə bir toy edəcəyəm ki, deməsinlər atası yoxdur. O zaman atamın da ruhu şad olacaq. Mən də qalib ordunun əsgəri kimi, sənin toyunda qol qaldırıb doyunca oynayacağam".

Son nəfəslərində şəhid olmaq şərəfindən qürurlanan oğullarımız, sanki şəhidlik mərtəbəsinə yüksəlmək üçün növbəyə duraraq ölümün gözünə dik baxan igidlərimiz, halal olsun sizə! Sizin qəhrəmanlığınızı, şücaətinizi tam dolğunluğu ilə təsvir etməyə söz tapmaq səhrada su gəzmək kimi mümkünsüzdür. "Öləriksə, şəhid, qalarıqsa, qazi,"-deyibən haqq savaşına atılan oğullar, ruhunuz şad, yeriniz cənnət olsun!

*Əzizağa Məmmədli.*

# Şəhidlərimizlə fəxr edirik

Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında əldə olunan böyük uğurlar otuz ilə yaxın bir müddətdə həsrətlə gözlədiyimiz şanlı qələbənin qazanılmasına gətirib çıxardı. Öz qanlarıyla torpağa nəfəs verən qəhrəman, igid oğullarımız Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdilər. Millətlər arasında başımızı uca edən, hər birimizə möhtəşəm qələbə sevincini yaşadan həmvətənlərimizə, o cümlədən şəhidlərimizə şeirlərin, poemaların, nəsr əsərlərinin, publisistik yazıların həsr olunması, bədii filmlərin çəkilməsi hər bir söz adamının, qələm sahibinin, incəsənət xadiminin borcudur. Bu baxımdan torpaq naminə həyatlarından keçən mərd oğullarımızı tərənnüm etməyi özünə mənəvi borc hesab edən Azərbaycan Texniki Universitetinin "Fizika" kafedrasının dosenti, texnika elmləri üzrə fəlsəfə doktoru Cüməli Qəniyevin Vətən müharibəsində şəhid olmuş Salyan rayonunun Kürsəngi kəndinin yetirmələri Əmrah Firavan oğlu Həmidov və Səməndər İsaxan oğlu İmanovun əziz xatirəsinə həsr etdiyi şeirləri ni təqdim edirik.







### Millətin yadında qalacaq Əmrah

Gözün aydın olsun, Kürsəngi kəndi,
Gəldi qucağına şəhid əfəndi,
Sanki bütün dünya nura bələndi.
Aləmə gur işıq saçacaq Əmrah,
Millətin yadında qalacaq Əmrah!

Gözün aydın olsun, dostlar, a dostlar,
Əmrahın şəninə söyləyin tostlar,
Sizləri gözləyir qurduğu postlar.
Göydən ildırım tək çaxacaq Əmrah,
Millətin yadında qalacaq Əmrah!

Qəlbin nurla doldu ata Firavan,
Oğlunla fəxr edir bizim bu cahan.
İcazə verəcək Böyük Yaradan,
Cənnətdə qonağın olacaq Əmrah,
Millətin yadında qalacaq Əmrah!

### Səməndər quşu tək yandı Səməndər

Deyirlər dünyada bir quş yaşarmış,
Gecəli-gündüzlü daim yanarmış,
Alovun içindən canlı yaranmış
"Səməndər quşudur" bildi Səməndər,
Səməndər quşu tək "yandı" Səməndər!

Vuruşdu düşmənlə, oldu qəhrəman,
Heç vaxt o, düşmənə vermədi aman.
"Qarabağ bizimdir"!-dedi hər zaman,
Torpağı ana tək sevdi Səməndər,
Səməndər quşu tək "yandı" Səməndər!

Kürsəngi torpağı oldu son yeri,
Şəhidlər ölmürlər, qalırlar diri.
Cənnətdə açılır hər gün səhəri,
"Cənnətlər bağı"na gəldi Səməndər,
Səməndər quşu tək "yandı" Səməndər!

*Cüməli Qəniyev.*

# Ruhun şad olsun, şəhid



Ermənistanın 27 sentyabr 2020-ci ildə ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsi başlandı və 10 noyabr 2020-ci il tarixdə zəfərlə başa çatdı. Rəşadətli Ordumuz illər ərzində Ermənistanın işğalı altında olan torpaqlarımızda qurduğu mürəkkəb konstruksiyalı mühəndis-istehkamları, bunker sistemlərini darmadağın etmiş, bir neçə eşelondan ibarət və sıx şəkildə minalanmış müdafiə xətlərini yararaq ərazilərimizi işğaldan azad etmişdir.

Vətən müharibəsində yüksək igidlik və şücaət göstərərək şəhidlik zirvəsinə yüksələn həmyerlilərimizdən biri Elmir Arzu oğlu Məmmədovdur. Rayonumuzun ilk şəhidi olan Elmir 1999-cu il iyunun 3-də Salyan rayonunun Xocalı kəndində anadan olmuşdur. 2016-cı ildə 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseyi bitirən gənc elə həmin il Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Energetika fakültəsinə daxil olmuşdur. 2020-ci ildə təhsilini başa vurduqdan sonra iyulun 6-da hərbi xidmətə yola düşmüşdür.

Vətən müharibəsi başlananda vətənpərvər həmyerlimiz də digər həmvətənlərimiz kimi, yurd yerlərimizin düşmən əsarətindən qurtulması üçün haqq savaşına atılmışdır. Sentyabrın 27-də Füzuli rayonunun azad olunması istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla həlak olaraq ali məqama-şəhidlik mərtəbəsinə yüksəlmişdir.

Əziz şəhidim, bu gün sənin ruhun şaddır. Ali Baş komandanımızın rəhbərliyi altında şanlı Ordumuz zəfər yürüşü ilə uzun illər ərzində düşmən tapdağı altında inləyən müqəddəs torpaqlarımızı azad etmiş, xalqımıza böyük Qələbə sevincini yaşatmışdır.

Əsrlər, qərinələr keçəcək, lakin sənin igidliyin, şücaətin heç vaxt unudulmayacaq, xalqımız tərəfindən daim minnətdarlıq hissi ilə yad ediləcəkdir.

*Sədəf Nəcəfova*
*Dövlət Arxivi Salyan filialının arxivçisi.*

## Təsərrüfat xəbərləri

### Rayonumuzun pambıqçıları respublikada birincidirlər

Dünyanı cənginə alan COVİD-19 pandemiyasının yaratdığı çətinliklər, üstəlik şanlı qələbəmizlə başa çatan Qarabağ savaşı kənd adamının əlini işdən soyutmadı. Aylarla əziyyətini çəkib barını, bəhrini toplamaqla qələbəmizə öz töhfəsini verməyə çalışan pambıqçılarımz da arxa cəbhədə fədakarlıq göstərərək rayonumuzun adını ucaltmış, Azərbaycanın pambıq əkilən 21 rayonu arasında respublika birincisi olmuşlar. Çoxdan unudulmuş "ağ qızıl"ın şan-şöhrətini özünə qaytarmışlar.



Dekabrın ilk günlərində də fermerlər sahələrdən məhsul yığaraq qəbul məntəqələrinə təhvil vermişlər. Ümumiyyətlə, bu il respublika üzrə 327586 ton pambıq yığılmışdır. Bu, ötən ilin yekun göstəricisindən 32586 ton çoxdur.

Qeyd edək ki, bu il rayonumuzun torpaq mülkiyyətçiləri 4788,2 hektarda çiyid səpini aparmışdılar. Məhsul yığımınadək bütün aqrotexniki tədbirlər vaxtında aparıldığından sahələrdə bol məhsul yetişdirildi. İndiyədək ən yüksək orta məhsuldarlıq bizim rayonda 40,35 sentner olmaqla qeydə alınıb. Rayon üzrə 16 min tona yaxın məhsul toplanıb.

Azərbaycanda pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Yeni subsidiya mexanizminə əsasən, pambıqçı fermerlər təhvil verdikləri məhsula görə, dövlətdən həm əkin, həm məhsul subsidiyası alırlar. Pambıq sahəsinin hər hektarına görə, fermerə 220 manat subsidiya verilir, eyni zamanda fermerlər qəbul məntəqələrinə təhvil verdikləri pambığın hər tonuna görə 100 manat subsidiya alırlar. Yetişdirilən məhsul fermerdən keyfiyyətindən asılı olaraq hər tonu 550-650 manat olmaqla satın alınır. Həyata keçirilən dövlət dəstəyi mexanizmləri nəticəsində pambıqçılıq kənd təsərrüfatının ən əməktutumlu və ən çox gəlir gətirən sahəsinə çevrilib.

### Salyanda 7 min hektardan çox sahədə payızlıq taxıl səpini aparılıb



Salyanda taxılçılıq əsas təsərrüfat sahələrindən hesab olunur. Fermerlər təsərrüfatın bu sahəsinə böyük maraq göstərdiklərindən rayonda taxıl istehsalı ilbəil artır.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, rayonumuzun taxılçıları ötən ilin payızında 16 min 802 hektar sahədə taxıl əkiblər. Əkinçilər cari ildə biçin apardıqları arpa sahələrindən 41 min 999, buğda zəmilərindən isə 24 min 142 ton məhsul götürüblər. Məhsul istehsalçıları taxıl sahələrindən ümumilikdə 65 min 214 ton taxıl əldə edərək, hər hektarın məhsuldarlığını 39 sentnerə çatdırıblar.

Qazanılmış uğurlardan ruhlanan fermer və torpaq mülkiyyətçiləri gələn ildə də yüksək nəticələr əldə etmək üçün səpin kampaniyasına vaxtında başlayıblar. "Aqrolizinq" ASC tərəfindən bütün lazımi səpin aqreqatları ilə təmin olunan əkinçilər qısa müddətdə 7 min 896 hektar sahədə səpin aparıblar ki, bunun da 5 min 912 hektarı arpa, 1984 hektarı isə buğdadır. Gün ərzində 200-220 hektar sahəyə toxum səpən əkinçilər səpin kampaniyasını qısa müddətdə başa çatdırmaq üçün bütün qüvvələrini sərf edirlər.

# İbrahimova Lətifə Əkbər qızı 1957-2020

Salyan Rayon Baytarlıq İdarəsinin kollektivinə ağır itki üz vermişdir. İdarənin əməkdaşı İbrahımova Lətifə Əkbər qızı dünyasını dəyişmişdir.

L.İbrahimova 1957-ci il iyul ayının 8-də Salyan rayonunda anadan olmuşdur. 1965-ci ildə Salyan şəhər 4 saylı orta məktəbin birinci sinfinə getmiş və 1975-ci ildə bu təhsil ocağını bitirdikdən sonra Astara rayon peşə məktəbində baytar-feldşer ixtisası üzrə təhsil almağa başlamışdır. Təhsilini başa vurduqdan sonra Lətifə xanım Salyan Rayon Kökəltmə Birliyində texnik vəzifəsinə işə qəbul edilmişdir.



İlk əmək fəaliyyəti dövründə bu sahənin təcrübəli insanlarından çox şey öyrənmiş, nəticədə özü də peşəkar mütəxəssisə çevrilmişdir. Kökəltmə birliyinin qazandığı uğurlara şəxsi töhfəsini verməklə, öz üzərində işləmiş, qabaqcıl təcrübə və texnologiyaların tətbiqinə çalışmışdır.

Lətifə İbrahimova 1982-ci ildən taleyini Salyan rayon Baytarlıq İdarəsinin kollektivinə bağlamışdır. Belə ki, o, bu idarədə feldşer vəzifəsinə işə qəbul olunsa da, özünün təşkilatçılığı, məsuliyyəti və etibrı ilə kollektiv arasında dərin hörmət və nüfuz qazanmışdır. Məhz buna görə də bir müddətdən sonra, yəni 1983-cü ildən etibarən Lətifə xanıma baytarlıq idarəsinin aptek müdirliyi vəzifəsini etibar etmişlər. Bu işin xarakteri idarənin kəndlərdə yerləşən məntəqələrinə vaxtında və tələb olunan səviyyədə peyvənd materiallarının çatdırılmasının təmin edilməsidir. O, bu işin öhdəsindən lazımınca gəlmişdir.

L.İbrahimova kənd həkim-məntəqələri ilə mütəmadi olaraq əlaqə saxlayar, öz həmkarları ilə yeni peyvəndlərə qarşı dərmanların istifadə qaydaları, texniki xarakteristikası barədə həmişə maarifləndirici söhbətlər aparardı.

Lətifə Əkbər qızı çalışdığı müddətdə kollektiv arasında dərin hörmət və nüfuz qazanmış, özündən sonra bu sahədə çalışmağa gələnlərə həmişə yaxşı nümunə olmuşdur. Onun əziz xatirəsi işlədiyi kollektivin və onu tanıyanların yaddaşından hələ uzun müddət silinməyəcəkdir.

Allah Rəhmət eləsin.

*Salyan Rayon Baytarlıq İdarəsinin kollektivi.*

### 2021-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 4-cü hissəsinə və "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. 2021-ci il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, mayın 13, 14-ü Ramazan bayramı, iyulun 20, 21-i Qurban bayramı günləri müəyyən edilsin.

2. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan günlər iş günü hesab edilmir.

*Əli Əsədov*
*Azərbaycan Respublikasının Baş naziri*

Bakı şəhəri, 3 dekabr 2020-ci il

# Koronavirus qripdən necə fərqlənir?

Mütəxəssislər Azərbaycanda koronavirusa yoluxma, eləcə də koronavirusdan ölüm hallarının artmasının səbəblərindən biri kimi, insanların özünümüalicə cəhdlərini göstərirlər.

Bir çox insanlar koronavirusa yoluxduqları zaman bunun mövsümi xəstəlik sayılan qrip olduğunu zənn edərək, həkim nəzarəti olmadan, özlərini müalicə etməyə çalışırlar.

Nəticədə mütəxəssislərin dediyi kimi, virusa yoluxan şəxsin səhhəti daha da pisləşir və o, həkimə gecikmiş halda müraciət edir. Bütün bunlar isə COVİD-19-a yoluxan şəxslər arasında ölüm hallarının artmasına da səbəb olur.

TƏBİB-dən verilən məlumata görə, bu iki infeksiyanın bir çox oxşar simptomları olsa da, ciddi fərqləri də mövcuddur.

Qrip və koronavirus arasındakı ilk əhəmiyyətli fərq odur ki, qripin simptomları daha sürətlə yayılır. COVİD-19-a yoluxma zamanı insan əvvəldə özünü sadəcə bir az narahat və zəif hiss edə bilər. COVİD-19-un simptomları yüksək hərarət və ya üşütmə, öskürək, nəfəs darlığı və ya nəfəs almaq çətinliyi, yorğunluq və zəiflik, əzələ və ya bədən ağrısı, baş ağrısı, qoxu və dad itkisi, boğaz ağrısı, burun tutqunluğu və ya axması, mədə ağrısı, ishal, ürək bulantısıdır.



Qripin simptomları isə öskürək, yüksək hərarət (olmaya da bilər), boğaz ağrısı, burun tutqunluğu və ya axıntısı, əzələ və ya bədən ağrısı, baş ağrısı, yorğunluqdur:

Oxşarlığın çox olması səbəbindən xəstəliklərin müəyyən edilməsi çətinləşə bilər. Tövsiyə olunur ki, hər hansı yoluxma əlaməti hiss etdikdə insanlar özlərini təcrid etsinlər və dərhal mütəxəssislərə müraciət etsinlər!

# Etibarsızdır

Salyan şəhər Ə.Quliyev küçəsi ev-8, mənzil-53-də yaşayan İsmayılov Rauf Nəriman oğlunun adına verilmiş "Azərbaycan Respublikası İxtisaslaşdırılmış Metros sertifikatı", "Dənizçinin tibbi sertifikatı", "İzdihamın idarə olunması üzrə hazırlıq sertifikatı", "Sürətli xilasetmə qayıq mütəxəssisi sertifikatı", "Bütün dənizçilər üçün təhlükəsizlik üzrə tanışlıq, ilkin hazırlıq və təlimat sertifikatı", "Sürətli olmayan xilasedici qayıq və sallar üzrə mütəxəssis sertifikatı", "Əmniyyətli idarəetmə haqqında Beynəlxalq Məcəllə" üzrə kursu bitirmə haqqında sertifikat və xarici pasport itdiyi üçün etibarsız sayılır.

# Allah rəhmət eləsin

Salyan rayon Mərkəzi Xəstəxanısının baş həkimi Nurlan Hüseynov, həkimlər-Gülşən, Aygün, Röya və Səmədağa, Minəxanım və Günay həkimlərə, əzizləri

ELMAR HACIYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Salyan rayon Uşaq Poliklinikasının kollektivi poliklinikanın müdiri Minəxanım həkimə, həyat yoldaşı

ELMAR HACIYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Avtandil Məlikov ailə üzvləri ilə birlikdə tanınmış ekoloq

ELMAR HACIYEVİN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Salyan rayon Salyan bələdiyyəsinin kollektivi bələdiyyənin üzvü Anar Hacıyevə, atası

ELMAR MÜƏLLİMİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor: Rüstəm Məlikov

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-29-26
E.mail:qelebesalyan@gmail.com
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 340 Sifariş: 35-36
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və fiziki şəxs Zeynalov Bayram Nəzər oğluna məxsus "BZ" mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab
№AZ17AİİB33070019444300222143
VÖEN:7000080071

Məsul növbətçi: L.H.Nəsirova